2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 5 fevral 2025-ci il tarixli 35 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 83 saylı Beyləqan seçki dairəsindən Birinci Aşıqlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmmədov Elvin Fazil oğlunun müraciəti 2025-ci il fevralın 5-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) ünvanlanmış, müraciətdə səsvermə günü adıçəkilən seçki dairəsinin 26 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyi iddia edilmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsi xahiş olunmuşdur.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə əsasən **q ə r a r a a l ı r :**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 83 saylı Beyləqan seçki dairəsindən Birinci Aşıqlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Məmmədov Elvin Fazil oğlunun 2025-ci il 5 fevral tarixli 35 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |